7 noyabr 2013-cü il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində, Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Şusuke Vatanabe və Zaqatala rayon İcra Hakimiyyətinin Başçısının birinci müavini cənab Tofiq Əhmədovun iştirakı ilə aşağıdakı layihə üzrə imzalanma mərasimi keçirilmişdir.

## 1. <u>Zaqatala rayonunun Qandax kəndində Tibb Məntəqəsinin Tikintisi Layihəsi</u>

Layihənin əsas məqsədi Qandax kəndində yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan diqər iki kəndin sakinlərinə göstəriləcək tibbi xidmətinin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 6040 nəfəri əhatə edir. Yaponiya hökümətinin həmin layihə üçün ayırdığı qrantın ümumi məbləği 121, 938 ABŞ dolları təşkil edir.

Müqavilənin imzalanma mərasimi



Səfir Şusuke Vatanebinin nitqi



Müqavilənin imzalanması



Müqavilənin imzalanma mərasimi başa çatdı

